# MEDİADA XARİCİ DÖVLƏTLƏRLƏ BAĞLI NARRATİVLƏR

APREL 2023



# Giriş

*“Mediada xarici dövlətlərlə bağlı narrativlər” reportu “Fakt Yoxla” tərəfindən Azərbaycan mediasında İran, Rusiya, Türkiyə və Qərb dövlətləri haqqında dərc olunan narrativləri özündə ehtiva edir. Reportun bu sayı 2023-cü ilin 1 Aprel - 30 Aprel tarixlərini əhatə edir.*

***Məqsəd****. Reportun hazırlanmasında məqsəd ölkənin media mühitində qonşu dövlətlər olan İran, Türkiyə və Rusiya və Qərb dövlətləri ilə bağlı hansı narrativlərin (hekayələrin) dərc edildiyini, dövri olaraq bu hekayələrin sayında və ya məzmununda hansı dəyişikliklərin olduğunu, hansı dövlətlərə qarşı qarayaxma kompaniyalarının aparıldığını ölkə vətəndaşlarına göstərməkdir.*

***Metodologiya****. Monitorinq yalnız onlayn resursları əhatə edir. Heç bir televiziya və ya çap mediası monitorinqə daxil edilmir. Siyasətçilərin və qurumların açıqlamaları və ya bəyanatları monitorinqə yalnız o halda daxil edilib ki, onlara verilən başlıqlar yönləndirici olsun. Video formatında olan materiallar monitorinqin əhatə dairəsinə daxil edilməyib. Monitorinq zamanı uyğun media qurumlarının bütün dərc edilən xəbərlər gözdən keçirilib, açar sözlər vasitəsilə axtarışdan istifadə edilməyib. Monitorinqə cəlb edilən media qurumları ölkədə çox oxunma sayına və tərəfliliyinə əsasən seçilmişdir.*
*Mart ayı ərzində monitorinq edilmiş media qurumları aşağıdakılardır:*
***Apa.az, Oxu.az, Musavat.com, Sahar Azeri, Sputnik.az, Demotiya.com, Trend.az, Milli.az***

***Nəticə.*** *Nəticələrə görə bu ay ərzində monitorinq edilmiş media qurumlarında ən çox yer alan xarici dövlət İrandır. İran ilə bağlı ay ərzində 89 narrativ qeydə alınıb. Ümumilikdə monitorinqin nəticəsində 144 narrativ aşkar edilmişdir:*



## Türkiyə

Türkiyənin müdafiə sənayesi olmasaydı, Azərbaycan Qarabağı azad etməkdə çətinlik çəkərdi. Link (10 aprel 2023)

Düşmənlərin həsədlə izlədiyi GÜC MƏRKƏZİ - Türk Dünyası üçün HƏSSAS GÜNLƏR. Link (6 aprel 2023)

Türkiyənin müstəqil xarici siyasəti və artan beynəlxalq nüfuzu. Link (14 aprel 2023)

Türkiyənin qonşusu İran seçkiləri yaxından izləyən ölkələr sırasında ilk yerdə qərarlaşıb. Çünki İranın ekspansionist siyasi və dini xəttinin qarşısındakı ən böyük maneələrdən biri öz qərarlarını verən, hər masada güclü varlığı olan, müdafiə sənayesində iddialı və bütün sahələrdə İslam dünyasına nümunə olma potensialına malik Türkiyədir. Link (15 aprel 2023)

Türkün qürurunu göylərə qaldıran BAYRAKDAR. Link (18 aprel 2023)

Türkiyə son 20 il ərzində böyük inkişaf yolu keçib.Bu inkişaf iqtisadiyyatın bütün sektorlarında olduğu kimi, nəqliyyat və ümumi infrastruktur sahəsində də özünü göstərir. Link (13 aprel 2023)

Türkiyənin müstəqil xarici siyasəti və artan beynəlxalq nüfuzu. Link (14 aprel 2023)

Türkiyənin güclü iqtisadiyyatı gələcək inkişafına zəmanətdir. Link (9 aprel 2023)

Ərdoğanın Türkiyə tarixində imzalanan ən iddialı layihələrindən biri: İlk türkiyəli kosmosa yollanacaq. Link (10 aprel 2023)

Ərdoğanın liderliyi: 100-cü ilinə “Doğru adam”la gedən Türkiyə. Link (11 aprel 2023)

Türkiyənin enerji siyasəti və ölkəni mərkəzi haba çevirən amil. Link 14 aprel 2023)

Ərdoğanla möhkəmlənən Türkiyə. Link (28 aprel 2023)

NATO Türkiyəyə MƏCBURDUR. Link 3 aprel 2023)

Türkiyənin bir kəlməsi HƏR ŞEYİ DƏYİŞDİ - Bu ölkə isə hələ "gözləmə zalı"ndadır. Link (4 aprel 2023)

Türkiyə dünyaya MEYDAN OXUYUR. Link (9 aprel 2023)

Türkiyə DEDİYİNİ ETDİ - Bu ölkənin planı baş tutmadı. Link (13 aprel 2023)

Türk müdafiə sənayesinin uğurları 1974-cü ildə ABŞ-ın Türkiyəyə tətbiq etdiyi 3 illik silah embarqosundan sonra 50 il ərzində başlayan hərbi təchizatı gücləndirmək siyasətinin nəticəsidir. Link (18 aprel 2023)

Dünyanın gözü TÜRKİYƏDƏ - Avropanı onlar xilas edəcək. Link (21 aprel 2023)

Dünyanın diqqəti TÜRKİYƏDƏ - Ankara onun sayəsində yüksəlişə keçir. Link (24 aprel 2023)

Türkiyə MEYDAN OXUDU. Link (25 aprel 2023)

Qardaş Türkiyə son 20 il ərzində güclü inkişaf yolu keçərək, adını texnoloji cəhətdən yüksək səviyyədə inkişaf etmiş dünya ölkələri siyahısına əlavə edib. Türkiyədə təşkil edilən "Teknofest" Aerokosmik və Texnologiya Festivalı da buna bariz nümunələrdən biridir. Link (10 aprel 2023)

Türkiyə son illərdə yüksək texnologiyanın inkişafını dövlət əhəmiyyətli məsələ səviyyəsinə qaldırıb. Artıq həm özəl, həm də dövlət sektoru yüksək texnologiyanı həyatın bütün sahələrinə inteqrasiya edir. Link (12 aprel 2023)

Türkiyə Avropanı enerji təhlükəsizliyinə qovuşduracaq mərkəzə çevrilir. Link (13 aprel 2023)

Gördüyünüz kimi, birmənalı olan odur ki, Türkiyədəki seçkinin istənilən nəticəsi dünyanın siyasi, iqtisadi və hərbi mənzərəsinə yeni nizam verəcək. Yəni heç bir şey əvvəlki kimi olmayacaq - fərq eləməz, Ərdoğan və ya Kılıçdaroğlu prezident seçilsin - hər iki halda dünya çapında ciddi dəyişikliklər olacaq. Amma fərqli istiqamətlərdə... Link (1 aprel 2023)

## İran

İran və Ermənistandan maliyyələşənlər xaricdə Azərbaycanla bağlı dezinformasiya yayırlar. Link (7 aprel 2023)

İrana xidmət edən daha bir şəbəkə ifşa edildi. Link (18 aprel 2023)

Tehran dövləti, sən nə qədər yazıq və gülüncsən... Link (1 aprel 2023)

Repressiv İran hökumətinin məmurları Sistan və Bəlucistan əyalətində yanacaq daşıyanlara atəş açıblar. Link (2 aprel 2023)

Ermənilərlə eyni qanı daşıyan rejimin İRAN SİYASƏTİ - Bakıya nota, İrəvana GÜL. Link (3 aprel 2023)

İran daha da qızışır. Azərbaycan soyuqqanlılığını qoruduqca, molla rejimi nə hədd bilir, nə də qəziyyə qanır. İran rejimi sakitləşmək əvəzinə, yeni təxribatların hazılığını görür. Yaxın müddətdə ambisiyasından əl çəkəcək kimi görünməyən İranın Azərbaycana qarşı müxətlif bəhanələrlə hərbi müdaxilə planı da istisna edilmir. Link (4 aprel 2023)

Molla rejimi qızlardan belə QİSAS alır. Link (4 aprel 2023)

Tehranın tapdanmış astar üzü: Molla rejimi indi "qeyrət"ə gəldi? Link (5 aprel 2023)

İran parlamentinin bəyanatı göstərir ki, bu ölkənin Azərbaycana qarşı siyasəti terror yönündə inkişaf edir. Link (5 aprel 2023)

Tehranın gizli üzü: qətllər, teraktlar, qəsdlər. Link (6 aprel 2023)

İran Bakı qarşısında ayağını yuxarıdan qoyduqca münasibətlərin normala dönməsi ümidləri üzülür. Ermənistanı özünə qardaş, qandaş elan edən, ermənidən çox erməni olduğunu isbatlayan İran molla-fars rejimi Azərbaycana qarşı düşmənçilik siyasətində başından yuxarı atlanmaqdadır. Link (6 aprel 2023)

İran Cənubi Qafqazda sülh yaradılmasından narahatdır. Link (7 aprel 2023)

Dalana dirənən İranın ümidi ermənilərədir. Link (7 aprel 2023)

Bakıya qarşı daha TƏHLÜKƏLİ OYUN - İran Azərbaycanı onların əli ilə VURMAĞI PLANLAŞDIRIR. Link (9 aprel 2023)

İran İƏT-də anti-Azərbaycan müzakirələr açmağı hədəflədi. Link (12 aprel 2023)

İran Ermənistanı silahlandırır: bu təxribat gözlənilən idi. Link (12 aprel 2023)

Qardaş Türkiyəni regionda özünə rəqib kimi görən fars molla rejimi bu istiqamətdə çirkin siyasətini davam etdirir. Link (13 aprel 2023)

Molla rejiminin Türkiyə xəyalı - İranın Ankaranı GÜCDƏN SALMAQ PLANI. Link (15 aprel 2023)

Çünki İran çox yaxşı bilir ki, Azərbaycan üçün bayraq bu Vətən qədər önəmlidir, toxunulmazdır, müqəddəsdir. Xamneyinin xarici siyasət üzrə əsas məsləhətçisi və İranın bu istiqamətdəki gedişlərinin arxasında dayanan əsas ad Şamxani bütün bu detalları hər halda heç də pis bilmir. Elə buna görə də Azərbaycanı özündən çıxarıb, proseslərə eyni şəkildə reaksiya verməsi üçün provokasiyaya çəkən Ermənistanın planının arxasında iran amilinin dayandığını söyləməkdə heç bir tərəddüd etmirəm. Link (15 aprel 2023)

Azərbaycanda İranın molla rejiminə xidmət edən şəxslərin müəyyən edilməsi və casus şəbəkələrinin ifşası istiqamətində əməliyyat tədbirləri davam etdirilir. Link (15 aprel 2023)

İran dəfələrlə Azərbaycan və Ermənistan arasında münaqişədə maraqlı olduğunu göstərib, həmçinin İrəvana dəstək verməyə hazırdır. Analitiklər bunu İranın səhvi kimi qiymətləndirir. Link (16 aprel 2023)

Molla rejimi İranda ona qarşı kütləvi etiraz aksiyaları keçirən vətəndaşlar arasında qorxu yaratmaq məqsədilə 2022-ci ildə edam nisbətini 2021-ci illə müqayisədə 75 faiz artırıb. Link (17 aprel 2023)

İranın Azərbaycanda daha bir məkrli planı işə düşüb. Tehrana bağlı qüvvələr xeyriyyəçilik adı ilə şəhid ailələri və qaziləri öz təsirləri altına salmağa çalışırlar. Link (18 aprel 2023)

Belə ki, həmin şəxslər dini xurafatçılıqla və İran lehinə dini təbliğat aparmaqla narkotik vasitələrin kütləvi satışını da təşkil edirmişlər. Din pərdəsi altında cinayətkar fəaliyyət göstərmiş şəbəkənin əsas məqsədi Azərbaycanın dünyəvi dəyərlərinə zərbə vurmaq, "kərimə" gənclərini narkotik vasitələrə qurşandırmaqla idarə etmək olub. Link (18 aprel 2023)

İran Azərbaycanda yeni təşkilat yaratdı - TƏXRİBAT DAVAM EDİR. Link (19 aprel 2023)

Son illər intensiv şəkildə Azərbaycanı təhdid edən və "İran regionda sərhədlərin dəyişdirilməsinə dözməyəcək" deyən rəsmi Tehranla bağlı maraqlı bir detal üzə çıxıb. Link (24 aprel 2023)

Fars molla rejimi ilə Azərbaycan arasında yaşanan son gərginliyin artaraq müharibəyə çevrilə biləcəyi ehtimalları səngimir. Link (25 aprel 2023)

İran parlamentinin bəyanatı göstərir ki, bu ölkənin Azərbaycana qarşı siyasəti terror yönündə inkişaf edir. Link (5 aprel 2023)

İran Cənubi Qafqazda sülh yaradılmasından narahatdır. Link (7 aprel 2023)

Tehranın "Narkoticarət Korpusu": Azərbaycanla bağlı çirkin planlar alt-üst oldu. Link (10 aprel 2023)

Tehranın radar yalanı: bu dəfə səbəb nədir?. Link (14 aprel 2023)

Molla rejiminin maskaları yırtılıb. Link (1 aprel 2023)

İrandan nota fırıldaqçılığı. Link (2 aprel 2023)

İrandan gələ biləcək növbəti təxribatlar: Azərbaycan təhlükəsizlik qüvvələrinə həyəcan siqnalı verilib. Link (3 aprel 2023)

İran Azərbaycana qarşı təxribata davam edir. Link (4 aprel 2023)

İran Azərbaycandakı casuslarını hansı yolla silahlandırır? Link (4 aprel 2023)

İran hesablamaları səhv apardı: Azərbaycan dövləti terrorçuları tapır. Link (4 aprel 2023)

Molla rejiminin diplomatlarının acınacaqlı durumu: Tabe olduqları qurumun siyasətdən xəbəri yoxdur. Link (4 aprel 2023)

İranın Azərbaycandakı casus şəbəkəsinin terror planları. Link (4 aprel 2023)

İran parlamentinin saxta müsəlman təəssübkeşliyi: Xaşxaşiləri yada salan rejim. Link (6 aprel 2023)

İrandakı molla rejimindən bölgəyə saçan təhlükə. Link (7 aprel 2023)

Azərbaycanla münasibətlərin düşməni: Dinlə maskalanan Tehran rejimi. Link (7 aprel 2023)

Ermənistanın cinayətlərinə şərik olan molla rejimi. Link (8 aprel 2023)

Terroru Ramazan orucundan üstün tutan İranın manqurtlaşmış dəstəsi. Link (8 aprel 2023)

Tehran-İrəvan cütlüyü: Cənubi Qafqazda gərginlik ittifaqı. Link (10 aprel 2023)

Fars-molla rejimi terrorçuluğu dövlət siyasətinə çevirib. Link (11 aprel 2023)

Fars-molla rejiminin Azərbaycana növbəti xəyanəti. Link (14 aprel 2023)

İranın molla rejimi Azərbaycanın daxili işlərinə müdaxilə etməkdə, intriqa və təxribatlar hazırlamaqda davam edir. Link (19 aprel 2023)

Azərbaycanda İranın casus şəbəkəsinə qarşı əməliyyatlar davam edir. Link (3 aprel 2023)

İran Azərbaycana hədə ritorikasından əl çəkmir. Link (4 aprel 2023)

İrandan heyrətamiz riyakarlıq - “Məzlum fələstinlilərin hüquqları” indimi yada düşdü?. Link (5 aprel 2023)

Sirlər açıldı - İranın Azərbaycandakı zəncirvari mart cinayətlərinin pərdəarxası. Link (6 aprel 2023)

Azərbaycanda İranın molla rejiminə xidmət edən daha bir nəfər tutuldu - CASUS ŞƏBƏKƏSİ. Link (6 aprel 2023)

Bütün “izlər” İran səfirliyinə aparır - Tehranın anti-Azərbaycan isteriyası bitmir. Link (8 aprel 2023)

İranın Azərbaycana növbəti TƏXRİBATının detalları ÜZƏ ÇIXDI. Link (10 aprel 2023)

İranın yeni təxribatı QAPIDA – bu dəfə hara hücum edəcəklər? Link (10 aprel 2023)

Son iki ayda aparılan kütləvi tutqularla bağlı ictimaiyyət arasında əsasən iki rəy var.Çoxluq o qədər adamın İrana casusluq ittihamı ilə həbs edilməsindən məmnundur, hətta casus şəbəkəsinin tamamilə darmadağın edilməsini istəyir. Link (10 aprel 2023)

Ermənistanın növbəti çirkin təxribatında İran izi. Link (12 aprel 2023)

İrandan Azərbaycana qarşı növbəti təxribat. Link (12 aprel 2023)

Eyni zamanda Azərbaycana qarşı məkrli planlar quran və Laçın yolunda post qurulması məsələsində təxribatçı açıqlamalar verən İranın da Ermənistanı fitvalaya biləcəyi ehtimalı böyükdür. Mümkündür ki, İran Ermənistanla hərbi müttəfiqlik haqda saziş imzaladığını bəhanə edərək, Zəngəzura hərbi qüvvələrini cəlb etsin, bununla xof yaratmağa çalışsın. Link (13 aprel 2023)

İran iqtisadi çöküşün astanasında: Toyuq növbəsində izdiham. Link (15 aprel 2023)

İranın molla rejimi Azərbaycanın daxili işlərinə müdaxilə etməkdə, intriqa və təxtibatlar hazırlamaqda davam edir. Link (19 aprel 2023)

İRANDAN DAHA BİR VƏHŞİLİK: Küçədə insanları güllləbaran etdilər. Link (21 aprel 2023)

İran Azərbaycandakı tör-töküntüləri üçün yeni təşkilat yaradır - xəyanət çetesi... Link (21 aprel 2023)

İrandan Türkiyə və Azərbaycana qarşı NÖVBƏTİ TƏXRİBAT. Link (24 aprel 2023)

Bu gün Tehranda Türkiyə və Azərbaycan bayraqları yandırıla bilər – İran bu pisliyi də bizə etsə... Link (24 aprel 2023)

Nə yazıq ki, bu cür həssas məsələlərdə İran hələ də xristian təəssübkeşliyi nəticəsində əzilən müsəlman xalqların yanında dayanmaqdansa "böyük şeytan" adlandırdığı qüvvələrlə həmrəylik nümayiş etdirir. Link (25 aprel 2023)

İranın kimyəvi terroru Niderlanda qədər uzandı. Link (27 aprel 2023)

1925-ci ildə İranda türk Qacarlar sülaləsinin hökmranlığı rəsmən ləğv edildikdən sonra fars Pəhləvilər sülaləsinin hakimiyyətə gəlməsi ilə yer adlarının dəyişdirilməsi Azərbaycan türklərinin kimliyini silmək üçün həyata keçirilən geniş siyasətin tərkib hissəsi oldu. Yəni İranda türklərin, xüsusilə də Güney Azərbaycan türklərinin farslaşdırma siyasətinə uyğun olaraq, onların ana dillərini qadağan etməklə, tarixlərini təhrif etməklə, milli kimliklərini aşağılamaqla yanaşı, yaşadıqları yerlərin coğrafi adları da dəyişikliyə məruz qaldı. Link (6 aprel 2023)

Qeyd edək ki, İranın Azərbaycan mediasına qarşı bu cür "əxlaqlı" iddiası və buna görə nota verməsi beynəlxalq diplomatiyaya qətiyyən uyğun deyil. Link (1 aprel 2023)

Azərbaycanın İsraildə səfirlik açmasından sonra konsulluğumuz yenidən hədəfə götürüldü: rəsmi Bakının bu addımına etiraz olaraq, Tehran rejimi Təbrizdəki konsulluğun qarşısında "bağlansın" tələbi ilə aksiya təşkil etdi. Link (3 aprel 2023)

Dünyanın müxtəlif yerlərində siyasi qətllər yarandığı gündən İranın dövlət siyasətinin tərkib hissəsi olub. Azərbaycanlı deputat Fazil Mustafaya qarşı törədilmiş terror aktı ilə bağlı

istintaq hələ davam etsə də, bu işdə də İran izi var. Link (4 aprel 2023)

İran rejiminin Güney Azərbaycanın təbiətinə vurduğu ziyanı və insanlarımıza etdiyi pisliyi saymaqla bitməz. Bu siyasətin qaynağı və kökü dərindir. Link (5 aprel 2023)

Azərbaycanın İsraildə səfirlik açması İrandan ölkəmizə qarşı yönələn təxribatlara, düşmən münasibətə qarşı həm də bir növ cavab idi. Link (6 aprel 2023)

İranın yeni təxribatı gözlənilir. Link (10 aprel 2023)

Qərb və Rusiya bölgədə bir-birinə qarşı olsa da, hansısa tərəfin təşəbbüsü ələ alması Ermənistanın götürdüyü öhdəliklərin icrasını aktuallaşdırır və bu, həm də İranı oyundan kənar vəziyyətə salır. Bu baxımdan, təxribat hücumunun Ermənistanla İranın birgə planı olması ehtimalı böyükdür. Link (11 aprel 2023)

Ancaq İranın bugünkü “davranışları” göstərdi ki, Ermənistanı Azərbaycana qarşı təhrik edənlər onun arxasında heç vaxt sona qədər durmurlar. Link (11 aprel 2023)

İran sözdə yumuşalma göstərsə də, əməldə biz bunu görmürük. Əməli addımlar üçün İran ermənilərə dəstək verməkdən əl çəkməli, Azərbaycanın iç məsələlərinə qarışmamalıdır. . Link (12 aprel 2023)

İranın Ermənistanı silahlandırdığı gözlənilən idi. Link (12 aprel 2023)

İran öz məqsədlərinə çatmaq üçün çox zaman terror və təhdid yolunu seçir. Azərbaycanla bu tərz davranış nəticə vermədiyindən, diplomatiyanı işə saldı. Link (18 aprel 2023)

İrəvan sərhəddə gedən döyüşlərdə İrandan gələn qadağan olunmuş silahlardan açıq şəkildə istifadə edib və Azərbaycan hərbçilərinin işgəncələrə məruz qalması ilə bağlı video sənədlər dərc edib. Link (18 aprel 2023)

İran dövlətçiliyi farsçılığın üzərində qurulduğu üçün türk amilinə düşmən münasibət bəsləyir, buna görə də Azərbaycana qarşı düşmənçilik edir. Link (18 aprel 2023)

Qızların və xanımların təhsildən yayınmasında maraqlı olan İran hakimiyyəti onlara qarşı ciddi prosesə başlayıb. Təhsil ocaqlarına hücum bu siyasətin tərkib hissəsidir. Link (20 aprel 2023)

İsrail haqlıdır, İran faşist rejimidir: Bəs, Pəhləvi kimdir?. Link (21 aprel 2023)

İrandan Türkiyə və Azərbaycana qarşı növbəti təxribat. Link (23 aprel 2023)

İran hökuməti azyaşlı uşaqları hərbi təlimlərə və ideoloji kurslara cəlb etməkdə davam edir. . Link (26 aprel 2023)

Hazırkı dövrə kimi Azərbaycana qarşı Ermənistan terror siyasəti həyata keçirib, vətəndaşlarımız bu qatı cinayətlərin qurbanına çevriliblər. İndi İran da Azərbaycana qarşı

eyni metodlardan yararlanır və bu hal Azərbaycan ictimaiyyətində İranı Ermənistanla eyniləşdirir. Link (3 aprel 2023)

İranda Azərbaycana qarşı təxribatlar davam etdirilir. Link (4 aprel 2023)

Səfirliyimizdə yaşananlar İranın molla rejiminin terrora dövlət səviyyəsində dəstəyinin əyani təsdiqi oldu. Link (6 aprel 2023)

## Rusiya

Rusiyalı jurnalistlər Kiyevin ölüm təhdidləri ilə üzləşir, beynəlxalq strukturlarsa susur. Link (2 aprel 2023)

Qərb bank böhranı ilə üz-üzədir. Rusiya sakit və təhlükəsiz limana çevrilir. Link (3 aprel 2023)

Beynəlxalq Valyuta Fondunun hesabatına görə, hazırda Rusiya iqtisadiyyatı sanksiyalara baxmayaraq, davamlı şəkildə bərpa olunur. Link (29 aprel 2023)

2022-ci ilin payızı sanksiyaların ən ağır nəticələrinin başlayacağı dövrün startı sayılırdı. Lakin Rusiya Federasiyasının iqtisadiyyatı çökmədi, fəaliyyətdədir və hətta bəzi sahələrdə böyük gəlirlər əldə edib. Link (4 aprel 2023)

Rusiya sülhməramlı kontingenti tərəfindən erməni millətindən olan vətəndaşların Xankəndiyə çatdırılması üçün Laçın-Xankəndi yolu ilə razılaşdırılmamış keçidin həyata keçirilməsinə cəhd - onların azərbaycanlı ekofəalların aksiya keçirdiyi ərazidə ləngiməsinə və bir neçə vətəndaşın səhhətinin pisləşməsinə səbəb olub - birmənalı olaraq təxribat kimi qiymətləndirilməlidir. Üstəlik, Rusiya sülhməramlı kontingenti tərəfindən həyata keçirilən təxribatı kimi. Link (5 aprel 2023)

Lakin indi birdən-birə Vaşinqton variantı ortaya çıxan kimi Qarabağ ermənilərinin sülhməramlılar vasitəsilə Azərbaycana görüş üçün xəbər göndərməsi deməyə əsaslı şübhələr yaradır ki, məhz bundan əvvəlki görüşlərin baş tutmamasında elə Moskvanın əli olub. Link (11 aprel 2023)

Rusiya Qərbə meydan oxudu: Sahel sizin deyil!. Link (13 aprel 2023)

Rusiyanın Ukraynaya müdaxiləsi postsovet məkanına daxil olan ölkələrdə ehtiyatlanmağa, mümkün təcavüzdən qorunmaq üçün hərəkətə keçməyə vadar edib. Və obyektivlik naminə demək lazımdır ki, bu qorxu üçün əsas da var. Link (14 aprel 2023)

Amma iş orasındadır ki, Rusiyanın bu gün maraqları tək Ukrayna cəbhəsi ilə yekunlaşmır. Moskva bu gün də Ermənistanla Azərbaycan arasında yekun sülhün əldə olunmasını, iki xalq arasında qarşılıqlı etimadın formalaşmasını və problemin qəti çözümünü istəmir, bu baxımdan kontrollu gərginliyin davam etməsində, xalqlar arasında qarşılıqlı etimadsızlığın

qalmasında maraqlıdır. Link (17 aprel 2023)

Rusiya ordusunun düşdüyü BİABIRÇI VƏZİYYƏT - Şoyqu uğursuz oldu, Putin isə. Link (3 aprel 2023)

Ukrayna savaşının başladılmasından sonra ABŞ və Qərb Rusiyanın bütün "qırmızı cizgilər"ini tapdalayıb, Kreml isə buna ənənəvi təhdidlərinə adekvat cavab reaksiyası verə bilməyib... Ona görə də, Qərb Rusiyanın "əzilməsi prosesi"ni daha israrla davam etdirməyin və sona çatdırmağın həm vacibliyinə, həm də mümkünlüyünə əmindir. Link (7 aprel 2023)

Sülh danışıqları ərəfəsində ermənilərin növbəti təxribatı: fitvaçı kimdir - Rusiya, yoxsa İran. Link (13 aprel 2023)

Rusiya qana susayıb - Ukraynalıların başı kəsilir. Link (13 aprel 2023)

Putinin partiyasından olan deputat Ermənistanın timsalında “Qızım, sənə deyirəm, gəlinim, sən eşit!” misalına uyğun olaraq postsovet məkanına xəbərdarlıq edir. Link (18 aprel 2023)

Azərbaycandan Rusiya-İran-Ermənistan birliyinə ŞOK ZƏRBƏ. Link (22 aprel 2023)

Rusiya Dumasının komitə sədri Azərbaycana qarşı təxribatçı bəyanatla çıxış edib. Link (19 aprel 2023)

Rəsmi Bakı Rusiya sülhməramlıları başda olmaqla bu qanunsuz fəaliyyətdə iştirak edənlərin hamısına dəfələrlə xəbərdarlıq etsə də, heç bir nəticəsi olmadı. Bu vəziyyət Azərbaycan ictimaiyyətində də haqlı qəzəb doğururdu. Link (25 aprel 2023)

## Qərb

ABŞ Türkiyə-Rusiya münasibətlərinə xələl gətirmək istəyir. Link (5 aprel 2023)

ABŞ getdi, sülh gəldi: Yaxın Şərq Amerika hegemonluğundan necə qurtulur. Link (12 aprel 2023)

Qərb, hansı səbəbdən sevilmədiyini təxmin etməyə başlayıb. Link (26 aprel 2023)

Qərb bank böhranı ilə üz-üzədir. Rusiya sakit və təhlükəsiz limana çevrilir. Link (3 aprel 2023)

Rudenko Qərbin Asiya-Sakit Okean regionundakı planlarını ifşa etdi. Link (4 aprel 2023)

Qərbin silah tələsi: NATO-nun tənəzzülü. Link (6 aprel 2023)

Qərb ekspertləri Rusiya iqtisadiyyatının çeviklik dərəcəsini düzgün qiymətləndirməyiblər. Link (8 aprel 2023)

ABŞ "Şimal axınları"nı partlatmaqla Rusiyanı şantaj etmək istəyib. Link (10 aprel 2023)

ABŞ-ın Rusiyanın BMT-dəki nümayəndə heyəti ilə bağlı planı iflasa uğrayıb. Link (25 aprel 2023)

Qərb Ukrayna qoşunlarının tədarük etdiyi silahların qara bazara ötürülməsi barədə susur. Link (27 aprel 2023)

Azərbaycanın ərazi bütövlüyü ilə bağlı prinsipial mövqeyi və atdığı son addımlar Qərb dairələrində, xüsusən də Fransada heç də xoş qarşılanmır. Link (28 aprel 2023)

Aİ missiyası bölgəni qarışdırır. Link (1 aprel 2023)

ABŞ-ın Cənubi Qafqaz bölgəsində dayanıqlı sülhlə stabilliyin bərqərar olunması istiqamətində rəqibləri az deyil. Əsas geosiyasi müqavimət mərkəzləri ənənəvi olaraq Rusiya Federasiyası və İran sayılır, lakin onların sırasına, ilk baxışdan nə qədər paradoksal görünsə də, Fransa da qatılıb. Link (29 aprel 2023)

ABŞ və Fransanın Laçınla bağlı "təsəlli" bəyanatı. Link (24 aprel 2023)

BAKI 2023